**UOT 75+535.6.+667**

**Günay Şirzad qızı Nərimanova**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**e-mail: gunay1979@list.ru**

# XV ƏSR FLORENSİYA RƏNGKARLIĞI

**Xülasə:** Məqalədə XV əsr Florensiya rəngkarlığının özünəməxsus xüsusiyyətləri öyrənilir. Bu rəngkarlığın səciyyəvi xüsusiyyətlərini tədqiq etmək üçün müəllif tədqiqat obyekti kimi İntibah boyakarlığının banisi florensiyalı Mazaççonun, keçid dövrünün ən mühüm sənətkarlarından biri Paolo Uççellonun, dövrün mühüm nümayəndəsi, dini bağlantıdan uzaqlaşaraq İntibahın həyatsevər kübar ruhundan ilhamlanan Fra Filippo Lippinin zəngin yaradıcılığını seçmişdir. Məqalədə İntibah dövrünün bu görkəmli nümayəndələrinin əsərlərinin sənətkarlıq xüsusiyyətləri təhlil edilmişdir.

**Açar sözlər:** Rəssam, kapella, freska, kompozisiya, mənzərə, Mazaçço, Lippi, Uççelo

XV əsrin əvvəlinə aid Florensiya rəngkarlığı təzadlı xarakteri ilə seçilir. Bu dövrün boyakarlığının inkişafı öz kökləri ilə heykəltəraşlığın tərəqqisinə yaxındır, lakin ayrı-ayrı məqamlarda burada fərqlər duyulur. Heykəltəraşlıqda olduğu kimi, rəngkarlıqda da son treçentonun qotika ənənələrindən İntibah incəsənətinə doğru qətiyyətli dönüş baş verir.

İntibah boyakarlığının banisi florensiyalı Mazaçço (1401-1428/29) gənc yaşlarında dünyasını dəyişmişdir. Sonralar onun şagird və davamçıları, Mazaççonun qarşıya qoyduğu bədii problemləri daha ətraflı və detallı tətbiq etmişdilər. Mazaççonun əsərlərində təsvir olunmuş personajların gözləri səviyyəsində təbii üfüq yaradılır. Zəngin dekorativ kolorit yerinə daha sakit rəng qamması istifadə olunur, predmet və fiqurların plastikasını daha da vurğulayan işıq-kölgə modelləşdirməsinin rolu böyüyür. Nəhayət, miniatür sənətinə xas olan detallaşmanı, Mazaçço ümumiləşdirilmiş və monumental lakonik formaların yaradılması ilə əvəz edir.

San Covanni di Valdarnodan olan və Mazaçço adı ilə tanınan Tomazo di ser Covanni di Simone Kassai notariusun oğlu idi. O, atasını çox erkən itirərək on altı yaşında rəssamlıq sənətinə yiyələnmək üçün Florensiyaya gəlir. Vazari onun müəllimi Mazolinonun adını çəkir, onunla birgə Mazaçço bir sıra əsərlər yaradıb. Lakin Mazolino tamamilə başqa, konservativ istiqamətin rəssamı olduğu üçün, Mazaççonun Mazalino kimi müəllimi olması fikri mübahisəlidir, lakin Mazaçço kimin tələbəsi olursa olsun, şübhəsiz ki, onun üçün əsl məktəb F. Brunelleski və

Donatello ilə ünsiyyət idi. Mazaçço sənətinin formalaşmasında bu iki böyük sənətkarın mühüm rolundan bəhs edərək Vazari demişdir ki: "Bu cavan rəssam hər bir şeydə Filippo və Donatellonun izi ilə gedərək başqa sənət növündə olsa da, öz əsərlərində fiqurları həyatda olduğu kimi təbii təsvir etməyə çalışır".

1424-cü ildə rəssam müqəddəs Luka gildiyasının üzvü seçilir. Ən erkən işlərindən biri Mazolino ilə birgə yaradılmış "Mələklər, müqəddəs Anna və körpə ilə Madonna" əsəridir. Belə hesab olunur ki, məkan quruluşu, heykəltəraşlıq həcmliliyi və formaların yığcamlığı ilə fərqlənən əsərin mərkəzi qrupunun müəllifi Mazaççodur. Mazaççonun yaradıcılığının erkən dövrünə qotika sənətkarlarının təsiri duyulur [1; s. 34]. Öz erkən əsərlərində Mazaçço bu ənənəyə mühüm diqqət yetirmişdir. Buna misal olaraq "Çarmıxa çəkilmə" (Neapol, Kapodimonte Muzeyi) əsərini göstərmək olar. Buradakı obrazlar yüksək emosional ekspressivliklə fərqlənir və əsərdə qotikada olduğu kimi, ifadəli güclü rəng çalarları üstünlük təşkil edir. Lakin tezliklə Mazaçço yeni mövqeyə keçir. Görünür ki, ona mühüm təsiri, boyakarlıqdan da, erkən qotikadan uzaqlaşmağa başlayan heykəltəraşlıq göstərmişdir. Mazaççonun yaradıcılığında F. Brunelleski tərəfindən tətbiq edilmiş xətli perspektiv nəzəriyyəsi xüsusi rol oynamışdır. Mazaççonun əsas monumental işi Florensiyadakı Santa Mariya del Karmine kilsəsinin Brankaççi kapellası üçün yaratdığı freskalar olmuşdur. Düzdür, hələ tamamilə kapellada Mazaççoya məxsus olan freskaları müəyyən etmək mümkün olmamışdır: mənbələrə görə burada müxtəlif sənətkarlar çalışmışdır. Əvvəllər səhvən Mazaççonun müəllimi hesab edilən rəssam Mazolino tərəfindən yerinə yetirilmiş kompozisiyalar üslub baxımından daha arxaikdir. Onların sırasına "Günaha batma" və digərləri daxildir.

Mazaççonun yaradıcılığına şübhə edilmədən şamil edilən əsərlər "Statir ilə möcüzə", "Cənnətdən qovulma", o cümlədən, müqəddəs Pyotrun həyatından götürülmüş səhnələrdir (1426-1428). Obrazların həyatiliyi, şərhin konsentrasiyası, əfsanəvi İncil hekayətlərinin canlılığı bu freskaları məşhur etmişdir. Çünki onlarda sonrakı dövrlər İtaliya boyakarlığının əsasını təşkil etmiş, realistik incəsənət proqramının əsas cizgiləri öz canlı ifadəsini tapmışdır. Mazaçço Cottodan sonra yığcam insan obrazının yaradılmasında növbəti mühüm addım atmışdır. Onun yaratdığı obrazlar artıq dini-estetik xarakterdən azad olmuş və yeni, dünyəvi dünyagörüşü ilə aşılanmışdır. Rəssam insanı əhatə edən ətraf mühitin təsvirində də önə çıxmışdır. Mazaçço hamar divar səthində, real üçölçülü məsafə fonunda həcmli və real insan fiqurunu yaratmağı öz qarşısında əsas məqsəd qoyaraq, bu problemlərin həlli istiqamətində böyük uğurlar əldə etmişdir. Öz kompozisiyalarına mənzərə daxil edərək, ona monumental, ümumiləşdirilmiş- realistik xarakter verərək sənətkar bu yolla təsvir etdiyi səhnələrin sərhədlərini genişləndirir. Önə çıxan pilyastr üzərində yerinə yetirilmiş "Cənnətdən qovulma"

əsərində Mazaçço Adəm və Həvvanın çılpaq fiqurlarını hərəkətdə verir. Güclü işıqlandırma ilə həcmliliyi vurğulayaraq sənətkar onları müxtəlif planlarda yerləşdirir. Bunun nəticəsində məsafəlik təəssüratı yaranır. Qırmızı qanadlı mələyin qəzəbli jestinin müşayiəti ilə Adəm və Həvva qorxu içində cənnəti tərk edirlər. Bu vaxta kimi İtaliya boyakarlığında dini mövzunun bu cür təsvir edilməsi məlum deyildir. Mazaççonun digər məşhur freskası – "Statir ilə möcüzə" geniş ümumiləşdirilmiş mənzərə fonunda təsvir edilmişdir. Burada İncil əfsanəsinin üç müxtəlif anları bir səhnədə birləşdirilmişdir. İşıq-kölgə təzadlarının yumşaqlığı və incəliyi, sadə və süni olmayan rəng çalarları – bunların hamısı ilk növbədə obrazların plastik ifadəliliyinin gücləndirilməsinə xidmət göstərir. XIV əsrin sonu – XV əsrin əvvəllərində fəaliyyət göstərmiş bir çox İtaliya rəssamlarının yaradıcılığına xas olan qotika təsiri bu kompozisiyalarda artıq aradan qaldırılmışdır.

Həmin kapellanın bir sıra digər freskalarında Mazaçço apostol Pyotrun həyatından götürülmüş müxtəlif məqamları təsvir edərək, onlara real insan tipləri və öz dövrünün memarlıq təsvirlərini daxil etmiş, İncil əfsanələrini canlı, ifadəli şərhlərə çevirmişdir. Mazaçço tərəfindən Florensiyadakı Santa Mariya Novella kilsəsi üçün yerinə yetirilmiş "Müqəddəs üçlük" freskası, tipik Renessans kompozisiya quruluşunun ilk nümunəsidir. Freskanın kompozisiyasında ilk dəfə hələ o zaman üzərində Brunelleskinin çalışdığı xətli perspektiv sistemi istifadə olunmuşdu. Freska bir-birinin üstündə yerləşən iki hissəyə bölünür. Yuxarı hissədə kessonlaşdırılmış yarımdairəvi qübbəli divarın dərinliyində İntibah dövrünün kapellası təsvir olunub. Onun ön planında çarmıx, Məryəm ana və Vəftizçi İohann, ikinci planın yuxarı hissəsində İsanın arxasında Tanrının fiquru görünür [2]. Girişin yan tərəflərində Mazaçço sanki artıq kilsənin real məkanından çıxan dizləri üstündə sifarişçiləri təsvir edir. Bu freskanı real portret təsvirlərinin dini kompozisiyaya daxil edilmiş ilk nümunələrdən biri hesab etmək olar.

1952-ci ildə aparılan bərpa işləri zamanı təmizlənmiş freskanın aşağı hissəsində sarkofaqın təsviri aşkar olunmuşdur. Onun qapağında skelet təsvir olunub, üzərində isə: "Mən nə vaxtsa sizin kimi idim, siz də nə vaxtsa mənim kimi olacaqsız" yazılıb. Freskanın hər iki hissəsi vahid perspektivdə həll olunub və beləliklə, yuxarı hissəyə aşağıdan yuxarı, aşağı hissəyə isə yuxarıdan aşağıya baxılır. Üfüq xətti tamaşaçının görmə səviyyəsinə uyğun olduğu üçün, öncə rəngkarlıqda bəlli olmayan məkanın, memarlığın, fiqurların təsvirlərində reallıq illüziyası yaradılıb. Öz qısa həyatı boyu Mazaçço elə də çox əsərlər yarada bilmədi, lakin onun yaratdığı əsərlər İtaliya rəssamlığında dönüş nöqtəsi oldu. Rəssamın ölümündən sonra Brankaççi kapellası hələ uzun müddət rəssamlar üçün ziyarət yeri və əsl sənət məktəbi idi.

Keçid dövrünün ən mühüm sənətkarlarından biri də Paolo Uççello (1397-1475) olmuşdur. Uççello ləqəbli Paolo di Doni hələ uşaq ikən Gibertinin emalatxanasına verilmişdi. Hesab edirlər ki, o, burada 1407-1414-cü illər arası, yəni Giberti baptisteriyanın şimal qapıları üzərində çalışdığı dövrdə olub. 1415-ci ildən başlayaraq rəssam müstəqil fəaliyyətə başlayır, 1424-cü ildə isə "Müqəddəs Luka" gildiyasının üzvü seçilir. Bir məlumat da mövcuddur ki, rəssam 1425- 1430-cu illərdə Venesiyada olub və burada San Marko baş kilsəsində mozaika ustası kimi çalışıb. Şimali İtaliya qotikası və Bizans kolorit ənənələri, o cümlədən, Verona boyakarı Pizanellonun yaradıcılığı ilə yaxından tanışlıq, sənətkarın erkən dövr bədii yaradıcılığında öz izini qoymuşdur.

Uççellonun erkən yaradıcılığında süjetlərin verilməsində qotik sistem və nağıllıq üstünlük təşkil edirdi. Buna misal olaraq "Müqəddəs Georginin əjdaha ilə döyüşü" (Paris, Jakmar-Andre toplumu) əsərini göstərmək olar [3]. Uççellonun sonrakı fəaliyyəti Florensiyada keçir. 1430-1440-cı illər ərzində F. Brunelleskinin yaradıcı əhatəsinə qoşulan Uççello perspektiv quruluşları yaxından öyrənmişdir. Onun yeni manerasının parlaq təzahürü kimi, mənşəcə ingilis olmuş, XIV əsrdə Milana qarşı vuruşan Florensiya qüvvələrinə rəhbərlik etmiş, kondotyer Con Hokvudun daş abidəsini təsvir edən freskanı qeyd etmək olar.

Hələ 1394-cü ildə Sinyoriya, XIV əsrin 60-cı illərində Florensiyaya qulluq edən bu görkəmli sərkərdənin xatirəsini əbədiləşdirməyə qərar qəbul olunmuşdu. Əvvəl onun şərəfinə abidənin ucaldılması nəzərdə tutulurdusa, sonra 1395-ci ildə iki florensiyalı rəssam tərəfindən yaradılmış freska ilə kifayətlənmişdilər və bu iş Paolo Uççelloya həvalə olunmuşdu. 1436-cı ildə kilsənin fasadı üçün çəkilmiş bu əsər, sonradan onun daxili divarına köçürülmüşdür. Boyakarlıq vasitələri ilə (kyaroskuro texnikası) rəssam heykəltəraşlıq təsviri illüziyasına nail olur. Sarkofaqın quraşdırıldığı postamentin konsoliləri, mürəkkəb perspektiv qısaldılmada verilmişdir və elə hesablanmışdır ki, freskaya aşağıdan yuxarı baxılsın. Lakin sərkərdə atlı ilə birgə rakurssuz, profildən verilmişdir. Bu əsərdə Uççello yaradıcılığının rasional istiqaməti özünü büruzə vermişdir – sənətkar qotik xətli üsullarından uzaqlaşaraq əsas diqqətini perspektiv sahəsindəki axtarışlara yönəltmişdir. Yığcam, ümumiləşdirilmiş, demək olar ki, monoxrom tərzdə yaradılmış nəhəng freska (8. 20 x 5. 15 m. ) rəssamın düşüncəsi ilə heykəltəraşlıq abidəsini əvəz etməli idi. Özünün son əsərlərində, xüsusən də, İntibahın ilk batal səhnələrindən biri olmuş və bir neçə variantda işlənmiş "San Roman yaxınlığında döyüş" adlı, Kozimo Mediçinin sarayının zalının bəzədilməsi üçün nəzərdə tutulmuş friz kimi uzanan əsərdə bu üsullar perspektiv oyununa çevrilir. Əsərin önündə ordu qarşısında şahə qalxmış ağ at üzərində verilmiş sərkərdə düşmənlə döyüşə girir. Onun arxasınca tam silahlanmış atlı dəstəsi gəlir. Lakin uzaq plan öndəki ilə bağlı deyil, təpəlik və yaylaqlardan ibarət olan

oyuncağa bənzər mənzərəni xatırladır. Bütün ekspressivliyinə və dinamikliyinə baxmayaraq, bu döyüş səhnəsi real mübarizədən daha çox nağılabənzər turniri xatırladır. Həyatının son illərində rəssam az işləyir. Ona sifariş olunan Urbino mehrabı bitirilməmiş qalır (Urbino, Bədii Qalereya). Dövrün ən mühüm nümayəndələrindən biri də getdikcə dini bağlantıdan uzaqlaşan və İntibahın həyatsevər kübar ruhundan ilhamlanan Fra Filippo Lippi (1406-1469) olmuşdur. Bu sənətkar erkən yaşlarında kilsədə dərs almağa başlayır, lakin qısa müddət ərzində oranı tərk edərək köçəri rəssam həyatı sürür. Onun həyatı haqqında bəzən heç də düz olmayan çoxsaylı rəvayətlər qoşulmuşdur. Belə bir rəvayət vardır ki, o, kilsə xadiməsi Lukretsiya Butini qaçırdır, bir qədər sonra onun iki övladı olur. Bir çox əsərlərində sənətkar öz həyat yoldaşını oğlu ilə birgə "Madonna körpə İsa ilə" obrazında təsvir etmişdir.

Fra Filipponun hansı sənətkardan dərs aldığı məlum deyil. Bəziləri belə hesab edir ki, o, Mazaççoya Brankaççi kapellasında işləyən zaman köməklik edirdi. Hər halda, rəssam Mazaççonun əsərlərini yaxşı bilirdi və təsvirlərin yaradılması zamanı iştirak edirdi, çünki o, 1421-ci ildən del Karmine kilsə ordeninin rahibi idi.

"Körpəyə səcdə" (Berlin) əsərində Məryəmin, körpənin və müqəddəslərin fiqurları bir qədər şərti təsvir olunmuş meşə mənzərəsi arasında verilmişdir, lakin detallar (çiçəklər, ağaclar) o dövr üçün mümkün olan bütün reallıqla rəsm edilmişdir. "Məryəmə tac qoyma" (1441-1447) adlı üç hissəli, triptixə bənzər əsərdə müqəddəslərin və mələklərin əhatəsində rəssam ön planda özünün və ailə üzvlərinin portretlərini yerləşdirir. "Madonna duvaq altında" (Florensiya, Uffitsi) əsərində rəssam öz həyat yoldaşını təsvir edir. Onun incə, uşağabənzər siması və ibadət edən əlləri kiçik Vəftizçi İohannın saxladığı İsaya tərəf yönəlib.

Fra Filipponun ən gözəl əsərlərdən biri 1465-ci ildə yaratdığı "Mələklər və körpə ilə Madonna" əsəridir (Florensiya. Uffitsi). Madonna uzaqda, mənzərə ilə açıq pəncərə fonunda yerləşən kürsüdə oturub. Bu, ona köməklik edən iki oğlanla, əlində uşağı saxlayan gözəl geyinmiş florensiyalı xanımdır. Belə hesab olunur ki, burada rəssam öz həyat yoldaşını və balaca oğlunu təsvir edib. Həqiqətən, əsər mehrab obrazından daha çox portretə bənzəyir.

1452-ci ilin "Madonna körpə ilə" tondosunda (Pitti qalereyası) interyer çoxsaylı fiqurlarla doldurulmuş ayrı-ayrı hissələrə bölünür. Filippo Lippi, həmçinin, bir sıra freskaların – Prato kilsəsindəki "Müqəddəs Stefanın dəfni" və "Pir Prodan" (1452-1464) əsərlərinin müəllifidir. Kozimo Mediçinin sevimli rəssamı olmuş Filippo Lippi öz yaradıcılığında qabaqcıl Florensiya sənətkarlarının nailiyyətlərindən istifadə edərək, əsərlərində lirik təbiət hissini ifadə edən, dini süjeti anlaşılan, cəlbedici tərzdə şərh olunmuş əsərlər yaratmışdır.

**Ədəbiyyat siyahısı:**

1. Арган, Дж. История итальянского искусства. В. 2 т. - М.: - 1990.
2. Виппер, Б. Р. Итальянский Ренессанс. В 2 т. -М.: - 1977.
3. Данилова, И. Е. От средних веков к Возрождению. - М.: - 1975.

**Гюнай Ширзад кызы Нариманова**

**ФЛОРЕНТИЙСКАЯ ЖИВОПИСЬ XV ВЕКА**

**Резюме:** В статье исследуются особенности флорентийской живописи XV века. Для изучения особенностей этой проблемы объектом исследования автором было избрано богатое художественное творчество представителя флорентийской школы Мазаччо, основоположника живописи эпохи Возрождения Паоло Уччелло, одного из важнейших художников переходного периода Фра Филиппо Липпи и др. В статье анализируются художественные особенности творчества этих выдающихся представителей эпохи Возрождения.

**Ключевые слова**: Художник, капелла, фреска, композиция, пейзаж, Мазаччо, Липпи, Уччелло

**Gunay Shirzad qizi Narimanova** **THE 15$^{TH}$ CENTURY OF FLORENCE PAINTING**

**Summary:** In the article the specific features of Florence painting of the 15$^{th}$ century are studied. In order to study the characteristic features of this painting, the author has chosen as an object of study the rich activities of some artists such as the founder of Renaissance painting Florence Masaccio, one of the most important artists of the transition period Paolo Uccello, inspired by the life- loving aristocratic spirit of the Renaissance, far from the religious relations Fra Filippo Lippi. In the article the artistry features of the works of these outstanding representatives of the Renaissance period are analyzed.

**Key words:** artist, capella, fresco, composition, landscape, Masaccio, Lippi, Uccello

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.02.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**